# Azərbaycanın beynəlxalq nüfuzunun növbəti təsdiqi

## *IV Qlobal Bakı Forumu ölkəmizə həm də iqtisadi dividendlərin qazanılmasında yeni yollar açacaq*

IV Qlobal Bakı Forumunda münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edildi. Ekspertlər, siyasətçilər bu beynəlxalq forumun bir daha Azərbaycanın dünyada söz sahibi olduğunu təsdiqlədilər.











Milli Məclisin deputatı, professor **Musa Qasımlı** bu barədə dedi: - Bakı şəhərində beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənə halını alıb. IV Qlobal Bakı Forumu olduqca sanballı tədbirdir. Adından da göründüyü kimi, qlobal xarakter daşıyan forum həm də Azərbaycanın dünyadakı gücünü göstərdi.

Ümumiyyətlə, Bakıda keçirilən qlobal forumlar xalqımızın, ölkəmizin tolerantlığının, multikultural dəyərlərə sahib çıxmasının və Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir. Forumda çıxış edən ölkə prezidentləri, siyasi xadimlər sivilizasiyaların toqquşması barədə dəyərli fikirlər səsləndiriblər. Bu gün Avropada böhran yaşanır, müsəlmanlara, başqa millətlərdən olanlara qarşı fərqli mövqe sergilənir. Bir sözlə, mədəniyyətlər Avropada toqquşur. Birqütblü dünya bir sıra hallarda cəmiyyətlərə, dövlətlərə problemlər yaradır. MDB ölkələrinin prezidentləri, digər siyasi xadimlər çıxışlarında dövlətlərin ərazi bütövlüyü məsələsini xüsusilə vurğuladılar. Azərbaycanla yanaşı, Gürcüstan və Ukraynanın da ərazi bütövlüyü pozulub, digər MDB ölkələri də separatizmdən əziyyət çəkirlər.

Azərbaycan Prezidenti İlham Əliyev forumdakı çıxışında Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunduğunu, BMT-nin işğal altındakı torpaqların azad edilməsilə bağlı 4 qətnamə qəbul etdiyini, amma icra edilmədiyini bir daha vurğulayıb, dünyaya çox ciddi mesajlar göndərdi. Bildirdi ki, digər ölkələrlə bağlı qəbul edilən qətnamələr dərhal icra edildiyi halda, Azərbaycana gələndə məsələ yubanır. Düşünürəm ki, Azərbaycana qarşı bu ədalətsiz yanaşma dərhal aradan qaldırılmalıdır.

M.Qasımlı hesab edir ki, IV Qlobal Bakı Forumunda səslənən fikirlər, irəli sürülən təkliflər bundan sonra ciddi müzakirələrə səbəb olacaq.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü **Vahid Əhmədov** dedi ki, IV Qlobal Bakı Forumunun Azərbaycan üçün siyasi və iqtisadi əhəmiyyəti olduqca böyükdür. Deputat forum çərçivəsində ölkə başçısı tərəfindən keçirilən ikitərəfli görüşlərin əhəmiyyətini xüsusilə qeyd etdi: "Dünyanın böyük təcrübəli siyasi liderlərinin, hazırkı və sabiq dövlət başçılarının foruma qatılması Azərbaycan üçün önəmlidir. Onlar öz ölkələrində böyük siyasi çəkiyə malik və əsas söz sahibi olan siyasətçilərdir.

Deputatın fikrincə, IV Qlobal Bakı Forumu bir sıra sahələrdə iqtisadi dividendlərin qazanılmasında ölkəyə yeni yollar açacaq. Dünya rəsmiləri ilə Prezident və Baş nazir arasında mühüm görüşlər keçirildi. Forumun çox mühüm bir əhəmiyyəti də odur ki, xarici ölkələrin nümayəndələri Azərbaycandakı stabilliyin yaxından şahidi oldular. Bu isə hazırkı şəraitdə Azərbaycana investisiya yatırmaq istəyən dövlətlər üçün mühüm iqtisadi amildir: "Azərbaycana maraq göstərən bir çox ölkələrin şirkət təmsilçiləri də tədbirə qatıldılar. Bu o deməkdir ki, həmin şirkətlər Bakı səfərindən sonra Azərbaycana investisiya yatırımı ilə bağlı ölkələrində müəyyən təbliğat-təşviqat işlərinə başlaya bilərlər. Forum Bakı üçün xüsusi rol oynayır. Yəqin ki, Prezident və Baş nazirlə xarici rəsmilər arasında ikitərəfli görüşlərdə iqtisadi layihələrlə bağlı müəyyən məsələlər bu danışıqlardan sonra həllini tapa biləcək".

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyasının Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri **Aydın Mirzəzadə** deyir ki, builki forum Azərbaycan barəsində formalaşmış müsbət fikirləri bir daha təsdiq etdi: "Forumda dünyanı narahat edən bir çox humanitar məsələlər diqqət mərkəzində oldu. Ümumi götürdükdə IV Qlobal Bakı Forumunu humanitar Davos forumu da hesab etmək olar. Bakı prosesi, Bakı ab-havası, Bakı çağırışları artıq dünya siyasi leksikonunda ciddi terminlərdən birinə çevrilir. Bu, Azərbaycanın bir dövlət kimi qazandığı nüfuzdan, beynəlxalq aləmdə oynadığı roldan və ən əsası isə ölkəmizin dünyada sülh və stabilliyin bərqərar olmasına verdiyi töhfədən irəli gəlir". Deputatın fikrincə, bu gün Azərbaycanla əməkdaşlıq etmək, birgə layihələrdə çalışmaq dünyanın əksər ölkələri üçün arzuolunandır. Azərbaycanın dövlət quruculuğunda təcrübəsi nəinki inkişaf edir, hətta inkişaf etmiş ölkələrdə diqqətlə öyrənilir. Dünyanın tanınmış siyasətçiləri, hazırkı və keçmiş dövlət başçılarının iştirak etdiyi tədbirlər Azərbaycana göstərilən etimadın, xaricdən göstərilən böyük dəstəyin nümayişdir. Azərbaycan birmənalı şəkildə sülh, stabillik və əməkdaşlıq ölkəsi deməkdir.

Milli Məclisin deputatı **Asim Mollazadə** də deyir ki, IV Qlobal Bakı Forumu Azərbaycanın dünya dövlətləri ilə əlaqələrinin daha da inkişaf etməsi üçün bir fürsətdir. Onun sözlərinə görə, forum ən azı münaqişələrin mahiyyətini anlamaqdan ötrü məlumatları əldə etmək üçün bir imkandır: "IV Qlobal Bakı Forumu Azərbaycanın dünyada tanıdılması, ölkəmizin strateji inkişafının hansı istiqamətdə olduğunu nümayiş etdirmək üçün gözəl imkanlar yaradır. Bundan başqa, dünyanın tanınmış liderləri, elm adamları Dağlıq Qarabağ münaqişəsi ilə daha yaxından tanış olmaq imkanı qazanırlar".

A.Mollazadənin fikrincə, forumda dünyanın çox ciddi problemləri, eləcə də həmin problemlərin həllinə töhfə verə bilən dəyərlər müzakirə olunur. Bu həm region, həm də dünya ölkələri üçün vacibdir: "Son dövrlər regionda baş verənlər heç bir ölkəyə təsirsiz ötüşmür. Bunu nəzərə alsaq, forumda iştirak edən ölkələrin hər biri bu problemlərin tezliklə həll edilməsində maraqlıdır. Bu baxımdan da Azərbaycanda keçirilən forum böyük əhəmiyyət kəsb edir".

Deputat onu da qeyd etdi ki, forumda iştirak edənlərin əksəriyyəti məhz Azərbaycanla tərəfdaşlıq dostluq və əməkdaşlığı yüksək qiymətləndirdilər. Bu səbəbdən də əminliklə söyləmək olar ki, belə forumların keçirilməsi Azərbaycanın dostlarını artıracaq.

Milli Məclisin deputatı **Fəzail İbrahimli** də dedi ki, IV Bakı Qlobal Forumu Azərbaycanda keçirilən silsilə beynəlxalq tədbirlərin tərkib hissəsidir. Lakin onun ölkəmizdə keçirilməsinin mühüm səbəbləri var: "Əvvəla, Azərbaycan dünya səviyyəli bu tədbirin keçirilməsi üçün heç də təsadüfən seçilməyib. Bunun üçün Azərbaycandakı vəziyyətin digər regionlara nisbətən daha sabit olması və iqtisadi inkişafı nəzərə alınır. İkincisi, paytaxtımızda belə irimiqyaslı tədbirlərin keçirilməsi Azərbaycanın dünyanın diqqət mərkəzində olması baxımından da vacibdir.

Deputatın fikrincə, ümumilikdə, forum dünyanın diqqətini Azərbaycana çəkir. Tanınmağın isə müxtəlif - iqtisadi, siyasi, mədəni inkişaf yolları var. Bütün bunlar ölkəmizdə cəmləşib. Bu tədbir ən azından orada iştirak edən insanların təmsil etdikləri dövlətlərin, onların əhalisinin, ictimaiyyətinin Azərbaycanla bağlı düşüncələrində əks olunacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***